# BULUDXAN XƏLİLOV

**(1966-2021)**



Ömür, yaşamaq haqqı hər bir bəşər övladına verilən paydır, qismətdir. Hər bir insan həyatda özündən sonra müəyyən izlər, nişanələr qoyub gedir. Alimə, elm adamına da belə bir pay düşür. O ömür yazıla-yazıla tükənir, qurtarır, əriyir. Elm, hikmətlər dünyası isə yaşarıdır, əbədidir. Amansız, vaxtsız, erkən ölüm uzun sürən çarəsiz xəstəlik.. 2021-ci ildə sentyabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili kafedrasının müdiri filologiya elmləri doktoru, professor Buludxan Əziz oğlu Xəlilovu sıralarımızdan apardı.

Buludxan Əziz oğlu Xəlilov 1966-cı ildə indi düşmən tapdağında olan Qərbi Azərbaycanın Ağbaba mahalında doğulub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərində "C.Cabbarlı adına təqaüd"lə oxuyub. Bu gənc filoloqun elmə, təhsilə olan marağı, xüsusi istedad və qabiliyyəti nəzərə alınaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının tövsiyəsinə əsasən Təhsil Nazirliyi tərəfindən Müasir Azərbaycan dili kafedrasında gənc mütəxəssis kimi saxlanılıb.1992-cı ildə namizədlik, 1999-cu ildə doktorluq dissertasiyası müdafiə edib.

Buludxan Xəlilov dilçiliyimizdə ən gənc yaşlarında qazandığı təkrarsız uğurlara, nail olduğu yeniliklərə görə akademik Ağamusa Axundov, akademik Zərifə Budaqova, akademik Tofiq Hacıyev, akademik Nizami Cəfərovdan sonra, onların rekordunu təzələyən, təkrarlayan dilçi alimlərdəndir. O, 26 yaşında fəlsəfə doktoru, 33 yaşında isə filologiya elmləri doktoru elmi dərəcəsini almışdır. 2001-ci ildə müsabiqə yolu ilə Müasir Azərbaycan dili kafedrasında boş olan professor vəzifəsinə seçilib. 2000-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində yeni yaranmış "Dədə Qorqud" elmi tədqiqat laboratoriya mərkəzinə rəhbər təyin olunub. 2001-ci ildə "İlin alimi" nominasiyasının, 2003-cü ildə "Vektor" Beynəlxalq Elmi Mərkəzi Mükafat Komissiyasının qərarı ilə "Azərbaycanın gənc alimləri" Beynəlxalq layihəsinin qalibi olmuşdur.

2006-cı ildən filologiya fakültəsinin dekanı olmuşdur. 2004-cü ildən Azad Qələmlər Cəmiyyəti tərəfindən Azərbaycan dili, ədəbiyyatı və türkologiya elmlərinin tədqiqi-təbliği sahəsindəki xidmətlərinə görə "Qızıl Qələm" fəxri mükafatı laureatıdır. 2006-cı ildə "XXI əsrin ziyalı"sı adına layiq görülmüşdür. 2006-cı il dekabrın 26-da Azərbaycanda təhsil sisteminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir. 2008-ci ildə "Qızıl qələm" fəxri

media mükafatı laureatı olmuşdur. Bir məsələ üzərində dayanmaq istərdik. Professor Buludxan Xəlilovun elmimizdə saldığı izlər dərindir, gətirdiyi yeniliklər hörmətə, diqqətə layiqdir. Alimin bütün uğurları onun həm klassik Azərbaycan dilçiliyinin nümayəndələrinin qoyub getdiyi irslə, həm də XIX və XX əsr dilçilərinin, korifeylərinin elmi əsərləri ilə dərindən dərinə tanışlığı sayəsində mümkün olmuşdur.

Görkəmli Azərbaycan dilçisi professor Buludxan Xəlilov sələflərinin elmi mülahizə və fikirlərinə, təlimlərinə həssaslıqla, ehtiramla yanaşmış, onlardan öyrənmiş və özünün dilçilik görüşlərini formalaşdırmışdır.

Buludxan Xəlilov Azərbaycan dilçiliyinin fonetika, morfologiya, sosioloji dilçilik, ədəbi dil tarixi, leksikologiya, üslubiyyat (əslində bütün sahələrin adını çəkmək doğru olardı) sahələrinin, türkoloji dilçiliyin, habelə ümumi dilçiliyimizin, bədii dilimizin, ayrı-ayrı sənətkarların (B.Vahabzadə, İ.Şıxlı, S.Vurğun və b.) dilinin mahir araşdırıcısıdır. O bu sahələrin ən mürəkkəb problemlərinə aid bir çox ölkələrdə məruzə və çıxışlar etmiş, simpozium və konfranslarda dilçiliyimizi şərəflə təmsil etmişdir. Onun qələmindən 20-dək monoqrafiya, dərslik, dərs vəsaitləri, 7 tədris proqramı, 200-dən artıq elmi, elmi-publisistik məqalələr çıxmışdır. Elmi əsərləri Türkiyə, İran, Qırğızıstan, Yakutiya, Bolqarıstan və Türkmənistanda çap olunmuşdur.

B.Xəlilov həmçinin, elmi kadrların hazırlanmasına da rəhbərlik etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın filologiya üzrə ekspert şurasının ən mötəbər üzvlərindən idi. Professor Buludxan Xəlilovun elmi əsərlərinə, monoqrafiya və kitablarına yazılmış resenziya və rəylərdə onun elmi yaradıcılığı layiqli qiymətini almışdır. O, həmçinin Azərbaycan dilinin ən aktual problemləri haqqında televiziya kanallarında müntəzəm çıxışlar etmiş, yeni-yeni mütərəqqi layihələr təqdim etmiş, ölkəmizin ictimai-siyasi həyatında ən fəal ziyalılardan biri kimi iştirak etmişdir.

Professor Buludxan Xəlilov təzə-təzə ömrünün 55-ci baharını yaşamağa başlayırdı. Lakin bu xoşbəxtlik onun üzünə gülmədi. Onun ömür karvanını amansız xəstəlik, vaxtsız ölüm qəflətən dayandırdı. Bir körpü ki, ondan övladı-bəşər keçəcəkdir. Buludxan Xəlilovu – həmişə cavan alim dostumu, öz əsərləri ilə Azərbaycan dilçiliyinə başucalığı gətirən, elmi həyatında onu pillə-pillə zənginləşdirən daim gənc bir araşdırımaçını baxışlarım axtarsa da, min-min təəssüf ki, o, aramızda, sıralarımızda yoxdur. Real və amansız həqiqətlə onun yoxluğu ilə razılaşmaqdan başqa çarəmiz qalmır. Ümid yerimiz, təsəllimiz onun dilçiliyimizə gətirdiyi dilçilər nəslinin göz qabağında olmasıdır. Necə ki, ana dilimiz yaşayır, dilçiliyimiz inkişafdadır, professor Buludxan Əziz oğlu Xəlilov da yaşayacaq. Allah onun ruhunu şad eləsin, dilçi həmkarlarımızın başı sağ olsun, qohumlarının, dostlarının başı sağ olsun!

*İsmayıl Məmmədli*